# *QMİ sədri:* "Qafqazda sabitliyin davamlı olması üçün din xadimləri də səy göstərməlidirlər"

Fevralın 16-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsinin Azərbaycan və Bakı Yeparxiyası rəhbərinin vəzifəsini müvəqqəti icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilaktı qəbul edib.



Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam Allahşükür Paşazadə QMİ ilə Rus Pravoslav Kilsəsi arasında əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb, Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin bu sahədə xidmətlərini xüsusi qeyd edib. Şeyxülislam Allahşükür Paşazadə 30 il davam edən Ermənistan-Azərbaycan münaqişəsi zamanı Patriarxın vasitəçilik missiyasını yüksək dəyərləndirərək vurğulayıb ki, məhz atılan addımlar nəticəsində problemin dini müstəviyə keçməsinin qarşısı alınıb.

Şeyxülislam Allahşükür Paşazadə Patriarx vəzifəsinə seçilməsinin 15 illiyi ilə bağlı təbriklərini Moskva və Bütün Rusiyanın Patriarxı Kirillə çatdırmağı qonaqdan xahiş edib.

QMİ sədri bildirib ki, ölkəmiz ilk gündən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə çalışıb, qarşı tərəfi də buna səsləyib. Azərbaycan dövlətinin və xalqının birliyi sayəsində əzəli torpaqların azad olunduğunu, ölkəmizin suverenliyinin tam bərpa edildiyini diqqətə çatdıran Şeyxülislam bildirib ki, Qafqazda sülhün və sabitliyin davamlı olması üçün din xadimləri də səy göstərməlidirlər.

Rus Pravoslav Kilsəsinin Azərbaycan və Bakı Yeparxiyası rəhbərinin vəzifəsini müvəqqəti icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilakt Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin salamlarını QMİ sədrinə yetirməkdən məmnunluq duyduğunu deyib. Qonaq Azərbaycan xalqını mühüm hadisə - fevralın 7-də keçirilmiş prezident seçkiləri münasibətilə təbrik edib, and içərək öz vəzifəsinin icrasına başlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə uğurlar arzulayıb. Feofilakt əmin olduğunu bildirib ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, burada yaşayan bütün xalqların rifahı üçün bundan sonra da yorulmadan çalışacaq.

Qəbulda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 17 fevral, № 36.- S.8.